**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SAMİRƏ ƏBÜLFƏT QIZI İMANOVA**

# RUMINİYA - AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ (1991-2011-CI ILLƏR)

İxtisas: 5502.01 - Ümumi tarix

Tarix üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI - 2014**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **M.C. QASIMLI**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **N.C. MEHDİYEVA**
Tarix üzrə elmlər doktoru, professor **M.S. HƏSƏNOV**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Tarix» kafedrası

Müdafiə «_10_» _05_ 2014-cü il tarixdə saat _____-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 22 fevral 2013-cü il tarixli 95 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___»___________ 2014-cü il tarixində göndərilmişdir.

**D.02.161 Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor S.Y. Süleymanova**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycan Respublikası Avropanın, eləcə də dünyanın ayrı-ayrı dövlətləri ilə birbaşa münasibətlər yaratmağa başladı. Ölkənin xarici siyasət xətti formalaşdı. Ümummilli lider Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimindəki çıxışında bəyan etdi: «Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük».[1]

Cənub-Şərqi Avropa dövlətləri içərisində Azərbaycanın tarixən, SSRİ dövründə isə mərkəz vasitəsilə sıx iqtisadi və mədəni əlaqələr saxladığı ölkələrdən biri olan Rumıniya ilə münasibətlərin qurulması əhəmiyyət kəsb edirdi. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ikinci ölkə oldu. 1991-2011-ci illər ərzində Rumıniya ilə Azərbaycan arasında yaranan ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlıq hər iki dövlətin milli maraqlarına cavab verirdi. Həmin münasibətlərin öyrənilməsi elmi və siyasi baxımdan aktuallıq kəsb edir.

Mövzunun elmi aktuallığını əsasən aşağıdakı amillər şərtləndirir: Rumıniya-Azərbaycan münasibətlərinin müxtəlif istiqamətləri ilə bağlı indiyədək müəyyən tədqiqatlar aparılsa da, bu sahədə kifayət qədər öyrənilməmiş məsələlər hələ də mövcuddur. Onların araşdırılması, yeni fakt və materialların dövriyyəyə gətirilməsi, şərh və təhlil edilməsi vacibdir.

İki ölkə arasında 1993-2004-cü illərdə əlaqələrə dair tədqiqatlar aparılsa da, münasibətlərin hüquqi-normativ bazası təhlil edilməmiş, çoxtərəfli əsasda əməkdaşlıq kompleks şəkildə araşdırılmamışdır. Digər tərəfdən isə 2004-2011-ci illərdə Rumıniya ilə Azərbaycan arasında mövcud olan münasibətlər ayrıca tədqiqat obyekti olmamışdır.

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 – may, 1994. Birinci kitab. Buraxılışa məsul: R. Mehdiyev, H. Orucov. Bakı: Azərnəşr, 1997, s. 205.

İki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, Azərbaycanın Avropanın, eləcə də Rumıniyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib yer tutması, Nabukko və AGRİ layihələri çərçivəsində əməkdaşlıq məsələləri xüsusi tədqiq edilməmişdir. Deməli, iki ölkə arasında münasibətlərin bu konteksdən də araşdırılması problemin elmi aktuallığını şərtləndirən amillərdən biridir.

İndiyədək tarixşünaslığımızda Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi (QİƏPM) çərçivəsində Rumıniya-Azərbaycan qarşılıqlı parlamentlərarası əlaqələri də araşdırılmamışdır. Qara dəniz Universitetlər Şəbəkəsinə (QDUŞ) daxil olan ölkələr arasında elm və təhsil sahələrində əməkdaşlığa dair müəyyən tədqiqatlar aparılsa da, bu təşkilat çərçivəsində iki ölkənin qarşılıqlı elmi-texniki əlaqələri xüsusi tədqiq edilməmişdir. Bu mənada hər iki ölkənin qanunvericilik təsisatları arasında həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin, Azərbaycan universitetlərinin əməkdaşlıq proseslərinə qoşulması, Rumıniyanın ali məktəbləri ilə əlaqələrin genişlənməsi və s. məsələlərin araşdırılmasına ehtiyac duyulur.

İki ölkə arasında münasibətləri şərtləndirən amillərdən biri olan mədəniyyət, xüsusən ədəbiyyat, incəsənət əlaqələrinin də araşdırılması mühüm aktuallıq kəsb edir.

Məlum olduğu kimi, müasir beynəlxalq münasibətlərin başlıca xüsusiyyətlərindən biri aktorların çoxalması və onların öz müxtəlifliyi ilə seçilməsidir. Bu baxımdan NATO, Avropa İttifaqı və onun Qonşuluq Siyasəti (AQŞ), Şərq tərəfdaşlığı proqramı, BMT, GUAM çərçivəsində Rumıniya-Azərbaycan münasibətləri, iki ölkənin iştirakçısı olduğu böyük Qara dəniz regionunda birgə layihələrdə əməkdaşlıq ayrıca tədqiqat mövzusu kimi işlənməmişdir. Bu nöqteyi-nəzərdən iki ölkə arasında münasibətlərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Problemin araşdırılmasının siyasi aktuallığı da vardır. Tədqiq edilən illərdə Rumıniya ilə Azərbaycan arasında enerji, nəqliyyat, maşınqayırma, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, ətraf mühitin müzafizəsi, turizm və investisiya sahələrində geniş iqtisadi əlaqələr mövcud olmuşdur. İqtisadiyyat sahəsində Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neft və qazın Avropaya nəqlini nəzərdə tutan Bakı-Konstansa-Triest, Nabukko və AGRİ layihələri üzərində iş aparılır. Bu layihələrdə Azərbaycan başlıca təchizatçı dövlətdirsə, Rumıniya tələbatçı və tranzit ölkə kimi çıxış edir.

İki ölkə arasında beynəlxalq və regional təşkilatlar çərçivəsində münasibətlərin geniş olması müasir siyasət baxımından mövzunun araşdırılmasını aktual edir. Bu mənada problemin araşdırılması 20 illik bir

dövr ərzində iki ölkə arasında diplomatik-siyasi, strateji tərəfdaşlıq, iqtisadi-ticarət, elmi-texniki, mədəniyyət və çoxtərəfli əsasda münasibətləri də toplanmış təcrübəni öyrənmək baxımından əhəmiyyətlidir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Dissertasiya işi yazılarkən bu sahəyə həsr olunmuş əsərlərdən geniş istifadə edilmişdir. Araşdırma göstərir ki, Rumıniya-Azərbaycan ikitərəfli və çoxtərəfli münasibətlərinə Azərbaycan, türk, rus, ingilis və rumın dillərində bir sıra əsərlər həsr edilmişdir.

Ə.Həsənovun əsərlərində 1991-1996-cı illərdə Azərbaycan Respublikasının Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Rumıniya ilə münasibətlərini zəruri edən amillər, dövlət başçılarının qarşılıqlı səfərləri, iki ölkə arasında imzalanan müqavilə və sazişlər, siyasi əməkdaşlıq məsələləri ümumi kontekstdə araşdırılmışdır.[1]

A.Məhərrəmovun Rumıniyada nəşr edilən əsəri iki ölkə arasında 1998-2006-cı illərdə QDUŞ çərçivəsində reallaşdırılan elmi əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir.[2]

Rumıniyada Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuş E.Həsənovun əsəri iki ölkə arasında 2010-cu ilə qədərki siyasi, mədəni və humanitar əlaqələrin inkişafı dinamikasını izləməyə imkan verir.[3]

M.Qasımovun (Qasımlı) əsərləri Azərbaycanın xarici siyasətinin prioritet və istiqamətləri, konseptual əsasları, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) və QİƏPM daxilində region dövlətləri ilə əlaqələrin inteqrasiya proseslərinə, ölkə daxilində iqtisadi sabitliyin yaranmasına və inkişafa şərait yaratması, İkinci Dünya müharibəsindən sonrakı dövrdə Azərbaycanın Şərqi Avropa ölkələri, o cümlədən Rumıniya ilə mədəni əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyətlidir.[4]

---

[1] Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.; Yenə onun. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.

[2] Maharramov A. Education and science in a globalized world. Constanta, Ex Ponto, 2006, 365 p.

[3] Həsənov E. Slavyan dənizindəki latın adasında. Ömrün 10 ili. Bakı: Azərnəşr, 2010, 282 s.

[4] Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: Gənclik, 1996, 135 s.; Yenə onun. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 119 s.; Yenə onun. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси: изд. Артануджи, 2005, 300 с.

Sovet hakimiyyəti illərində Azərbaycan yaradıcılıq ittifaqlarının Rumıniya ilə ədəbi əlaqələrinin və incəsənət sahəsində əməkdaşlığının öyrənilməsində N. Mehdiyevanın əsəri böyük əhəmiyyətə malikdir.[1]

Rumıniya ilə Azərbaycan arasında münasibətlərin bəzi tərəfləri Konstansanın Ovidius Universitetinin doktorantı Fəxri Kərimli tərəfindən də tədqiq edilmişdir. Müəllif Rumıniyada 2006-cı ildə «Azərbaycan Respublikası və Rumıniya arasındakı münasibətlər (1993-2004)» mövzusunda dissertasiya işini müdafiə etmiş və onun eyni adlı monoqrafiyası nəşr olunmuşdur. Monoqrafiyada Balkan və Qafqaz regionları arasında oxşar və fərqli cəhətlər, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, «Əsrin müqaviləsi», QİƏT, ATƏT, Avropa Şurası çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığı, iki ölkənin siyasi, iqtisadi, mədəni əlaqələrinin vəziyyəti və perspektivləri araşdırılmışdır.[2] Lakin monoqrafiyada 1993-2004-cü illərdə QİƏPM, QDUŞ, Avropa İttifaqı, NATO, GUAM çərçivəsində Rumıniya ilə Azərbaycan arasında münasibətlər tədqiq edilməmişdir. İki ölkə arasında investisiya, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, informasiya-kommunikasiya texnologiyaları, turizm sahəsində əməkdaşlıq məsələləri də diqqətdən kənarda qalmışdır.

İki ölkə arasında münasibətlər Azərbaycan və Rumıniyada dərc edilən müxtəlif elmi məqalələrdə də tədqiqat mövzusu olmuşdur. E.Həsənovun məqaləsində iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıq, onun formaları və əhəmiyyəti haqqında məlumatlar verilmişdir.[3]

Rumıniya ilə Azərbaycan arasında münasibətlər Azərbaycanın Rumıniyadakı mədəniyyət məsələləri üzrə attaşesi, yuxarıda adını qeyd etdiyimiz F.Kərimlinin məqalələrində də təhlil olunmuşdur.[4] Onun məqalələrində

---

[1] Mehdiyeva N.C. Azərbaycan yaradıcılıq ittifaqlarının mədəni əlaqələri (1960-1980-ci illər). Bakı: Azərnəşr, 1991, 130 s.

[2] Rumın dilində dissertasiya yazan ilk azərbaycanlı Rumıniyada elmlər doktoru elmi dərəcəsi alıb / http://www.diaspora.gov.az/files/news/ 1301251708184310809.doc.

[3] Hasanov E. The bridge between Europe and Asia // Revista Romana de studii Eurasiatice. Anul I, NR.1, 2005, p.19-25.

[4] Kərimli F. Rumıniya Azərbaycanın Avropaya açılan qapısı. «Yeni Azərbaycan» qəz., 2002, 14 may, № 087 (1315); Yenə onun. Rumın-Azərbaycan ticarət dövriyyəsi 100 milyon dollara qalxa bilər. «Yeni Azərbaycan» qəz., 2001, 28 noyabr, №226 (1205); Yenə onun. Rumıniya GUÖAM-la əməkdaşlığı inkişaf etdirir. «Yeni Azərbaycan» qəz., 2001, 29 noyabr, № 227 (1206).

Rumıniyanın Azərbaycanda maraqları, onların səbəbləri, ildən-ilə neft istehlakının artması və belə olan halda bu ölkənin Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirməyə önəm verməsi, ticarət dövriyyəsinin həcmi, NATO təlimlərində birgə iştirak, tərəflərin maraqlı olduğu çoxtərəfli iqtisadi layihələrdə əməkdaşlıq və digər məsələlər zəngin fakt və materiallar əsasında araşdırılmışdır.

Rumıniyanın Azərbaycan Respublikasında səfiri olmuş və təhsil, mədəniyyət sahəsində iki ölkə arasında münasibətlərin inkişafına mühüm töhfələr vermiş Təhsin Cəmilin xidmətləri haqqında məlumatlar M.Qasımlının məqaləsində öz əksini tapmışdır.[1]

Rumıniya ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni sahədə əməkdaşlıq bir sıra müəlliflərin də müraciət etdiyi mövzulardan biri olmuşdur. P.Məmmədli, A.Abbasova və K.Muxtarovun[2] məqalələri iki ölkə arasında iqtisadi əlaqələr, sovet dövründə ədəbi, mədəni əməkdaşlıq, İkinci Dünya müharibəsindən sonra azərbaycanlı mütəxəssislərin Rumıniyanın dağılmış neft sənayesinin bərpasında iştirakı və digər məsələləri öyrənmək baxımından əhəmiyyətlidir.

Rumın müəllifləri də Azərbaycan haqqında bir sıra əsərlər yazmışlar. Dissertasiya işi yazılarkən həmin əsərlərdən istifadə edilmişdir. Minador Mitrikanın «Azərbaycanın dirçəlişi» əsərində Dağlıq Qarabağ regionunun Azərbaycanın tarixi torpağı olması göstərilərək, ermənilərin buraya XIX əsrin əvvəllərində köçürülməsi faktı əks olunmuşdur.[3] Əsərdə müəllif Rumıniya ilə Azərbaycan arasında münasibətlərin inkişafında Heydər Əliyevin fəaliyyətinin böyük rol oynadığı qənaətinə gəlmişdir.

Rumıniyadan Azərbaycana baxışın öyrənilməsində Kopi Kuçukinin «Azərbaycanın qısa tarixi» əsəri təqdirəlayiqdir.[4] Müəllif Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində tarixi torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin həyat şəraitini real şəkildə əks etdirmişdir.

---

[1] Qasimli M. Cretor of sympathy to Romania and Azerbaijan // Istorie si diplomatie in relatiile internationale. Constanta: Ovidius university press, 2003, p. 30-38.

[2] Məmmədli P. Azərbaycan-Rumıniya əlaqələri genişlənir. «Respublika» qəz., 2000, 1 dekabr, № 274 (1012).; Abbasova A. Azərbaycan-Rumıniya əlaqələrinin inkişafında ədəbiyyat və incəsənətin rolu // Mədəni-maarif jurnalı, 2001, № 5-6, s. 26-28.; Muxtarov K. Rumıniya-Azərbaycan əlaqələri tarixindən. «Respublika» qəz., 2001, 8 dekabr, № 280 (1317).

[3] Mitrica M. The revival of Azerbaijan. Bucharest: Paideia, 2003, 255 p.

[4] Kyçyku K. Scurtă istorie a Azerbaidjanului. Bucureşti: Librarium Haemus, 2007, 148 p.

Rumıniyanın tanınmış ziyalısı və bəstəkarı Paul Polidorun «Azadlıq. Azərbaycan 15 il azadlıq libasında» antologiyası Azərbaycan mədəniyyətinə, azərbaycanlı ziyalılara verilən qiymətin bariz nümunəsidir.[1]

Rumıniyanın görkəmli dövlət xadimi İon İliyeskunun əsəri iki ölkə arasında münasibətlərdən bəhs etməsə də, Rumıniyanın Avropa İttifaqına inteqrasiya problemlərini öyrənmək baxımından əhəmiyyətlidir.[2]

İki ölkə arasında münasibətlər, Azərbaycanın tarixi, mədəniyyəti, Cənubi Qafqazda tutduğu strateji mövqe, Ermənistan-Azərbaycan münaqişəsi, bu problemin həlli yolları və digər məsələlərə rumın müəllifləri bir sıra məqalələr həsr etmişlər. Rumıniyanın Azərbaycanda səfiri olmuş T.Cəmilin, P.Badeskunun, Y.Konstantinin, Ş.Corcesku və M.Zidarunun, A.Giciunun məqalələrində[3] Azərbaycanın tarixi, iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq, 2011-ci ildə Azərbaycanın Rumıniyanın xarici siyasət prioritetlərinə daxil edilməsi, NATO-nun Cənubi Qafqazın təhlükəsizliyinə önəm verməsi, buradakı münaqişələrin regional iqtisadi inkişafa xələl gətirməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində on minlərlə insanın həlak olması və qaçqın düşməsi və digər məsələlər öz əksini tapmışdır. Rumın müəllifləri münaqişəni Azərbaycanın iqtisadi perspektivinə zərbə kimi qiymətləndirmişdir.

Rumıniya ilə Azərbaycan arasında münasibətlər bəzi rumın tədqiqatçıları tərəfindən elmi araşdırma mövzusu olmuşdur. Paul Polidor Buxarestin

---

[1] Polidor P. Azadliq. Azerbaigean: 15 ani în haina libertăţii. Bucureşti: Editura Fundaţiei „ Paul Polidor", 2006, 176 p.

[2] İliyesku İ. İnteqrasiya və qloballaşma. Rumıniya baxışı. Bakı: OSCAR, 2003, 266 s.

[3] Gemil T. Istoria Azerbaidjanului privită din perspectivă Europeană. // Geopolitica. Azerbaidjan – actor geopolitic regional. Bucureşti: Editura Top Form, 2011, anul IX – Nr.40, p.153 - 156.; Bădescu P. Azerbaidjan – actor geostrategic important în Caucazul de Sud // Geopolitica. Azerbaidjan – actor geopolitic regional. Bucureşti: Editura Top Form, 2011, p. 85-92.; Constantin I. Consideraţii privind rolul pivotal al Azerbaidjanului în cadrul ecuaţiei ponto-Caspice // Geopolitica. Azerbaidjan : actor geopolitic regional. Bucureşti: Editura Top Form, 2011, anul IX – Nr.40, p.62-69.; Georgescu Ş., Zidaru M. Conflicte interstatale în Caucazului. // Geopolitica. Azerbaidjan – actor geopolitic regional. Bucureşti: Editura Top Form, 2011, anul IX – Nr.40, p.109 – 119.; Ghigiu A. Azerbaidjan. O perspectivă politico – istorică asupra conflictului din Nagorno – Karabah // Geopolitica. Azerbaidjan – actor geopolitic regional. Bucureşti: Editura Top Form, 2011, anul IX – Nr.40, p. 212 - 219.

«Spiru Haret» Universitetinin tarix fakültəsində «Rumıniya-Azərbaycan əlaqələri qarşılıqlı kəsişmələr məkanında (1992-2008)» mövzusunda magistrlik dissertasiyasını müdafiə etmişdir.

2002-ci ildə Bakıda elmi təcrübə keçən tədqiqatçı Marius İepure də analoji mövzuya müraciət etmişdir. Lakin bu müəlliflər iki ölkə arasında münasibətlərə geniş elmi yanaşmamış, tutarlı fakt və materiallara istinad etməmişlər.

Tarixşünaslığın öyrənilməsi göstərir ki, problemin ayrı-ayrı sahələri ilə bağlı müxtəlif tədqiqat əsərləri mövcud olsa da, iki ölkə arasında ikitərəfli və çoxtərəfli münasibətlər kompleks şəkildə araşdırılmamışdır. Bu baxımdan təqdim olunan dissertasiya işi Rumıniya ilə Azərbaycan arasında 1991-ci ildən 2011-ci ilədək olan münasibətlərin, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq kontekstində kompleks şəkildə araşdırıldığı ilk elmi-tədqiqat işidir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən zəngin və ən mötəbər mənbələrdən istifadə edilmişdir. Həmin mənbələri bir neçə qrupa bölmək olar: çap olunmuş rəsmi sənədlər; Azərbaycan Respublikası dövlət xadimlərinin əsərləri və arxiv materialları.

Çap olunmuş rəsmi sənədlərə iki dövlət arasında imzalanmış müqavilə və sazişlər, onların təsdiqi haqqında sərəncamlar və ölkə rəsmilərinin görüşləri aiddir.[1]

Dövlət xadimlərinin əsərlərinə ölkə başçılarının, xarici işlər nazirlərinin, parlament sədrlərinin və digər rəsmilərin qarşılıqlı səfərləri zamanı söylədikləri nitq, çıxış və müsahibələri aiddir. «Müstəqilliyimiz əbədidir»[2]

---

[1] Azərbaycan Respublikası və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə. 1995-ci il, 2 iyul. // AR XİN-in cari arxivi. Beynəlxalq Hüquq və Müqavilələr İdarəsi; Azərbaycan Respublikası ilə Rumıniya arasında 2004-cü il oktyabrın 11-də Buxarest şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. «Azərbaycan» qəz., 2005, 10 fevral, № 31 (3950); Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Baseskunun görüşü. «Azərbaycan» qəz., 2006, 6 iyun, № 123 (4346); Azərbaycan Prezidenti Heydər Əliyevin şərəfinə Buxarestdə rəsmi qəbul. «Azərbaycan» qəz., 1995, 7 iyul, № 126 (1143); Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya səfəri. «Azərbaycan» qəz., 2006, 6 iyun, № 123 (4346).

[2] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 45 cilddə, I c., Bakı: Azərnəşr, 1997, 606 s.; VI c., Bakı: Azərnəşr, 1998, 512 s.; VII c., Bakı: Azərnəşr, 1998, 520 s.; XII c., Bakı: Azərnəşr, 2004, 432 s.

və «Azərbaycan beynəlxalq aləmdə»[1] çoxcildli kitablarda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici ölkələrə, o cümlədən Rumıniyaya səfəri zamanı söylədiyi nitqləri öz əksini tapmışdır.

Azərbaycan Respublikası Dövlət Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Neft Akademiyasının arxiv materialları problemi araşdırmaqda mühüm mənbə rolunu oynamışdır.

Sovet dövründə Rumıniya ilə mərkəz vasitəsilə həyata keçirilən iqtisadi və mədəni əlaqələrin öyrənilməsində Azərbaycan SSR Xarici İşlər Nazirliyinin, Azərbaycanın Xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin ARDA-da saxlanılan fondlarının (f.28, f.2693) materiallarından istifadə edilmişdir.[2]

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin fondlarında sovet dövründə iki ölkə arasında mədəni əlaqələrin inkişafı üçün qəbul olunan qərarlar və digər sənədlər saxlanılır.[3]

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivində saxlanılan 1991-ci ildən sonrakı dövrdə iki ölkə arasında imzalanan müqavilə, saziş və yazışmalardan geniş istifadə olunmuşdur.[4]

Azərbaycan Respublikası Milli Məclisinin Arxivində araşdırılan illərdə Azərbaycan ilə Rumıniya arasında imzalanan müqavilə və sazişlər, Azərbaycan parlament nümayəndə heyəti ilə Rumıniya siyasi xadimlərinin və rəsmi şəxslərinin görüşləri, QİƏPM çərçivəsində əməkdaşlığa dair

---

[1] Azərbaycan beynəlxalq aləmdə: 8 cilddə, II c., Bakı: Göytürk, 1998, 761 s.; III c., Bakı: Göytürk, 1998, 776 s.; VI c., Bakı: Nurlan, 2001, 448 s.; VIII c., Bakı: Nurlan, 2003, 454 s.

[2] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): f.28, siy.12, iş 50; f.28, siy.11, iş 14; f.2693, siy.1, iş 159.

[3] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA): f.1, siy.58, iş 76; f.1, siy.59, iş 49; f.1, siy.59, iş 71; f.1, siy.64, iş 72.

[4] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Rumıniya Xarici İşlər Nazirliyinə göndərdiyi 11 mart 1992-ci il tarixli 196/Dpo nömrəli notası; Azərbaycan Respublikası və Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətləri haqqında bəyannamə. 1995, 2 iyul; Agreement between the government of Romania and the government of Azerbaijan Republic on cooperation in the field of tourism, 27 March, 1996 // AR XİN-in cari arxivi.

materiallar toplanmışdır.[1]

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin cari arxiv materiallarında ölkələrarası yazışmalar, əməkdaşlığa dair faktlar toplanmışdır.[2]

Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Neft Akademiyasının arxiv sənədləri Rumıniya ilə Azərbaycan arasında elmlər akademiyaları və universitetlərarası əməkdaşlıq məsələlərini öyrənmək baxımından əhəmiyyətlidir.[3]

Dissertasiya işi yazılarkən hər iki ölkənin rəsmi dövlət saytlarına da müraciət olunmuşdur. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Prezidentinin, Ədliyyə Nazirliyi Qanunvericilik Baş İdarəsinin, Azərbaycan Dövlət Neft Şirkətinin, Heydər Əliyev

---

[1] Azərbaycan Respublikasının Prezidentinin və Rumıniya Prezidentinin birgə bəyannaməsi. 2005-ci il martın 1-dən 4-dək Azərbaycan Respublikası Milli Məclisinin iclasında qəbul olunmuş qanunlar; Azərbaycan Respublikası Milli Məclisinin sədri O.Əsədovun Rumıniyaya rəsmi səfər proqramı. 18-20 dekabr, 2006; Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi. QİƏPM-in işinə dair sənədlər. QİƏPM-in reqlamenti. 1993 // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941.

[2] Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri R. Mehdiyevə mədəniyyət və turizm naziri Ə.Qarayevin №405/02-14/3, 04.08.2011 tarixli məktubu; Rumıniyanın mədəniyyət və milli irs naziri Hunor Klemenin Azərbaycan Respublikasına səfər proqramı, 28-31 iyul 2011; Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin 08 avqust 2011-ci il tarixli 4/12-363/05/11 nömrəli məktubu ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs şöbəsinin təklifi // Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin cari arxivi.

[3] Azərbaycan Respublikası hökuməti ilə Rumıniya hökuməti arasında elmi-texniki əməkdaşlıq və ticarət-iqtisadi əlaqələr üzrə Müştərək Komissiyanın 3-cü iclasının protokolu; Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında hava əlaqələri haqqında saziş; Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsi ilə Rumıniya Tədqiqatlar və Texnologiya Nazirliyi arasında elmi-texniki əməkdaşlıq haqqında saziş // AMEA-nın cari arxivi; Agreement on mutual cooperation on scientific research area between Ovidius University and Baku State University. 2002; Agreement of cooperation between Bioterra University of Bucharest and BSU and Azerbaijan Technical University // BDU-nun cari arxivi; Azərbaycan Dövlət Neft Akademiyası ilə Ployeştidə Neft-Qaz Universiteti arasında bağlanılmış əməkdaşlıq protokolu // ADNA-nın cari arxivi.

Fondunun, Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin və Rumıniya Xarici İşlər Nazirliyinin, Rumıniyanın Azərbaycan Respublikasında səfirliyinin, Rumıniya Prezidentinin, Rumıniya – Azərbaycan Sənaye – Ticarət Palatasının, Rumıniyanın İqtisadiyyat Nazirliyinin Xarici Ticarət Departamentinin, Rumıniya İqtisadiyyat, Ticarət və Biznes mühiti Nazirliyinin, Rumıniya Milli Statistika İnstitutunun, Qara dəniz Universitetlər Şəbəkəsinin elektron informasiya materiallarından geniş istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi 1991-ci ildən 2011-ci ilədək Azərbaycan Respublikası ilə Rumıniya arasında əməkdaşlıq sahələrini, onların əsas forma və istiqamətlərini, həyata keçirilmə prosesini ən mötəbər mənbələr əsasında, sistemli şəkildə araşdırmaq, şərh və təhlil etmək, ümumiləşdirilmiş nəticələr çıxarmaq və əhəmiyyətini göstərməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün dissertasiyada aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuşdur:

- Mövcud mənbə və ədəbiyyatın əsasında iki ölkə arasında diplomatik-siyasi münasibətləri zəruri edən amilləri, qarşılıqlı maraq sahələrini, müqavilə-hüquq bazasını araşdırmaq;
- Qanunvericilik sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin dövlətlərarası münasibətlərin inkişafına təsirini tədqiq etmək;
- Strateji tərəfdaşlıq sahələrini müəyyənləşdirmək, şərh və təhlil etmək;
- Enerji sahəsində əməkdaşlığın münasibətlərdə əsas amillərdən biri olmasını göstərmək;
- İki ölkə arasında investisiya qoyuluşu sahəsində əməkdaşlığı öyrənmək və Azərbaycan Respublikasının bu istiqamətdə Rumıniyadakı fəaliyyətini tədqiq etmək;
- Elmi-texniki, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın inkişaf dinamikasını, formalarını şərh və təhlil etmək;
- İki ölkə arasında əlaqələrin inkişafında Azərbaycan diasporasının rolunu müəyyənləşdirmək, eləcə də erməni diasporasının Rumıniyadakı fəaliyyətinə nəzər salmaq və bunun qarşılıqlı münasibətlərə təsirini üzə çıxarmaq;
- Çoxtərəfli formatda beynəlxalq və regional təşkilatlar çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığının Xəzər-Qara dəniz regionunun iqtisadi inkişafına təsirini araşdırmaq;
- Azərbaycan-Rumıniya əməkdaşlığını daha da inkişaf etdirmək üçün elmi əsaslandırılmış praktik tövsiyələr irəli sürmək.

**Tədqiqatın obyekti** 1991-2011-ci illərdə Rumıniya ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli münasibətlərdir.

**Tədqiqatın predmeti** Rumıniya ilə Azərbaycan arasında diplomatik-siyasi münasibətlərin, iqtisadi-ticarət, elmi-texniki, mədəni əməkdaş-lığın inkişaf dinamikası, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, çoxtərəfli əsasda həyata keçirilən birgə iqtisadi layihələr və onların region üçün əhəmiyyətidir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1991-2011-ci illəri əhatə edir. Belə bir xronoloji çərçivənin seçilməsi bəzi amillərlə bağlıdır. Bu, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən başlayaraq qarşılıqlı münasibətlərin yeni səviyyəyə çıxdığı 2011-ci ilədək olan dövrdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf dinamikasını və əhəmiyyətini izləməyə imkan verir.

**Dissertasiya işinin metodoloji əsası və metodları.** Tədqiqatın metodoloji əsasını ümumi elmi-nəzəri yanaşmalar təşkil edir. Dissertant tarixi tədqiqatlar üçün qəbul olunmuş obyektivlik, tarixilik, sistemlilik, şərh, təhlil, müqayisəli təhlil, tənqidi təhlil və s. kimi metodlardan istifadə etmiş və ümumiləşdirilmiş elmi nəticələr çıxarmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin bir sıra müddəaları elmi yenilik səciyyəsi daşıyır. Azərbaycan tarix elmində ilk dəfə olaraq:

- İndiyədək istifadə olunmayan ən mötəbər mənbələrin və ədəbiyyatların öyrənilməsi, sistemləşdirilməsi və elmi dövriyyəyə gətirilməsi nəticəsində 1991-2011-ci illərdə Rumıniya-Azərbaycan münasibətləri kompleks şəkildə araşdırılmışdır.
- Diplomatik-siyasi münasibətlərin hüquqi-normativ bazası təhlil edilmişdir. Göstərilmişdir ki, araşdırılan illərdə münasibətlərin hüquqi bazası yaradılmış və daim təkmilləşdirilmişdir;
- Diplomatik-siyasi münasibətlərin və digər sahələrdə əməkdaşlığın formaları, mahiyyəti və xüsusiyyətləri aşkarlanmışdır;
- Strateji tərəfdaşlıq münasibətləri tədqiq olunaraq əməkdaşlığın konkret sahələri göstərilmişdir. Belə bir nəticə çıxarılmışdır ki, əməkdaşlığın gedişində həmin formalar təkmilləşdirilmiş və səmərəli olmuşdur;
- Mütəşəkkil cinayətkarlıga, terrorizmə, narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə məsələləri öyrənilmiş, ədliyyə, təhlükəsizlik və hərbi sahələrdə əməkdaşlıq formaları tədqiq edilmişdir;
- Nəqliyyat, investisiya, kənd təsərrüfatı, ətraf mühitin qorunması, informasiya-kommunikasiya texnologiyaları və turizm sahələrində əməkdaşlıq məsələləri araşdırılmışdır;
- Səhiyyə nazirlikləri arasında əməkdaşlıq münasibətləri öyrənilmişdir;
- Heydər Əliyev Fondunun Rumıniyada humanitar fəaliyyəti və iki ölkənin gəncləri arasında əməkdaşlıq münasibətləri geniş şəkildə tədqiq

edilmişdir. Bu fondun iki ölkə arasında humanitar sahədə əməkdaşlıqda mühüm rol oynadığı vurğulanmışdır;

- QİƏT və QİƏPM, QDUŞ, həmçinin AŞPA, NATO, ATƏT, Avropa İttifaqı, BMT, GUAM çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığı öyrənilmişdir. Göstərilmişdir ki, çoxtərəfli formatda əməkdaşlıq tərəflərə fayda vermişdir;
- Pan-Avropa, Nabukko, AGRİ və digər layihələr çərçivəsində iki ölkənin əməkdaşlığı tədqiq edilmişdir. Belə bir nəticə çıxarılmışdır ki, enerji sahəsində əməkdaşlıq faydalı olmuş və Azərbaycan Respublikası Rumıniyanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynamışdır;
- İki ölkə arasında münasibətləri daha da inkişaf etdirmək üçün elmi əsaslandırılmış tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəaları və nəticələrindən:

- Azərbaycan Respublikasının və Rumıniyanın xarici siyasətinə, bütövlükdə beynəlxalq münasibətlər tarixinə dair əsərlərin, dərslik və dərs vəsaitlərinin hazırlanmasında;
- Universitetlərin tarix və beynəlxalq münasibətlər fakültələrində müvafiq mövzuya dair ixtisas kurslarının aparılması, proqramların, mühazirə mətnlərinin tərtib edilməsində;
- Tarix və beynəlxalq münasibətlər mövzusunda elmi konfrans, simpozium və seminarların keçirilməsində;
- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti tarix fakültəsinin «Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi» kafedrasında yerinə yetirilmiş, kafedranın 30 aprel 2012-ci il tarixli iclasında (protokol №6) müzakirə olunaraq müdafiəyə tövsiyə edilmişdir. Problemin müxtəlif aspektləri Azərbaycanda (16), və xarici ölkələrdə (3) nəşr edilən elmi jurnallarda çap olunmuş məqalələrdə öz əksini tapmışdır. Bundan əlavə, doktorantların və gənc tədqiqatçıların respublika və beynəlxalq elmi konfranslarının materiallarında təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 6 yarımfəsli əhatə edən 3 fəsil, nəticə, praktik tövsiyələr, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, istifadə edilmiş mənbə və ədəbiyyatlar təhlil edilir, məqsəd və vəzifələri, praktik əhəmiyyəti müəyyənləşdirilir, metodoloji əsası, elmi yeniliyi, xronoloji çərçivəsi, obyekti, predmeti və aprobasiyası göstərilir.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan birinci fəsli **«Rumıniya ilə Azərbaycan Respublikası arasında diplomatik-siyasi münasibətlər»** adlanır. **«Rumıniya-Azərbaycan münasibətlərinə təsir edən amillər. Diplomatik münasibətlərin qurulması»** adlanan birinci yarımfəsildə arxiv materialları dövriyyəyə gətirilərək sovet dövründə mərkəz vasitəsilə həyata keçirilən əlaqələrə qısa tarixi səyahət edilir. Göstərilir ki, XX əsrin 60-90-ci illərində Azərbaycan ilə Rumıniya arasında iqtisadiyyat, elmi-texniki, ədəbiyyat və incəsənət sahələrində əməkdaşlıq mövcud olmuşdur.

SSRİ-nin dağılmasından sonra Rumıniya ilə Azərbaycan arasındakı əlaqələr yeni mərhələyə qədəm qoyaraq iki müstəqil dövlətin münasibətləri səviyyəsində qurulmağa başladı. Qeyd olunur ki, hər iki ölkənin sənaye müəssisələrinin qarşılıqlı ehtiyacı, xarici siyasət sahəsində strateji mənafe birliyi, nəqliyyat-kommunikasiya problemi, Azərbaycanın zəngin neft və qaz ehtiyatlarına malik olması və əlverişli strateji-coğrafi mövqedə yerləşməsi ikitərəfli münasibətləri zəruri edən amillərdəndir.

**«Rumıniya-Azərbaycan diplomatik-siyasi münasibətlərinin inkişafı»** adlanan ikinci yarımfəsildə 1993-cü ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra iki ölkə arasında diplomatik-siyasi sahədə münasibətlərin inkişafı tədqiq edilir. Prezident Heydər Əliyev ilə Rumıniyanın dövlət başçısı İ. İliyeskunun 1994-cü ilin dekabr ayında ATƏT-in Budapeşt sammitində ilk dəfə görüşü, Rumıniyanın Ermənistanın Azərbaycana təcavüzü nəticəsində meydana çıxmış Dağlıq Qarabağ münaqişəsində tutduğu mövqe tədqiq edilir.[1] Yarımfəsildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin arxiv materiallarından istifadə edilməklə dövlət başçılarının səfərləri, qarşılıqlı fikir mübadilələri, münasibətlərin hüquqi-normativ bazası şərh və təhlil edilmişdir. Göstərilmişdir ki, 1995-ci ilin iyul ayında Prezident Heydər Əliyevin Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Buxarestdə keçirilən II zirvə görüşündə iştirakı, eyni zamanda Rumıniyaya ilk rəsmi səfəri dövlətlər

---

[1] Azərbaycan diplomatiyasının taleyüklü böyük uğuru. «Azərbaycan» qəz., 1994, 9 dekabr, № 238 (1002).

arasında ikitərəfli və çoxtərəfli münasibətlərin təməlini qoydu.[1] Qeyd edilmişdir ki, Rumıniya ilə Azərbaycan arasında parlamentlərarası əlaqələr genişlənmişdir. Bu əlaqələr həm ikitərəfli səviyyədə, həm də Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi çərçivəsində inkişaf etmişdir.[2] Rumıniya eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və ərazi bütövlüyünü tanımışdır. Araşdırma göstərir ki, Rumıniya ilə Azərbaycan arasında 1995-ci ildə təməli qoyulan dostluq əlaqələri strateji tərəfdaşlıq münasibətləri səviyyəsinə yüksəlmişdir.[3]

Dissertasiya işinin 2 yarımfəsildən ibarət olan ikinci fəsli **«İki ölkə arasında iqtisadi, elmi-texniki və mədəni əlaqələr»** adlanır. **«Ticarət-iqtisadi əməkdaşlıq»** adlanan birinci yarımfəsildə Rumıniya ilə Azərbaycan arasında 1991-2011-ci illərdə iqtisadi-ticarət əlaqələrinin müxtəlif istiqamətləri araşdırılır. Göstərilir ki, bu illərdə Rumıniya ilə Azərbaycan arasında iqtisad-ticarət münasibətlərinin hüquqi bazası yaradılmış, bu əlaqələr əsasən energetika, neft-qaz sənayesi, maşınqayırma, metallurgiya, nəqliyyat, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, investisiya sahəsində inkişaf etmişdir. Vurğulanır ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1995-ci ildə Rumıniyaya ilk rəsmi səfəri ilə iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin təməli qoyuldu.

Araşdırma göstərir ki, sonrakı illərdə əməkdaşlıq genişlənmişdir. 2004-cü il oktyabrın 7-8-də Buxarestdə Azərbaycan ilə Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiya yaradıldı.[4] Rumıniya ilə Azərbaycan arasında ticarət dövriyyəsi artmışdır. Əgər 1995-ci ildə iki ölkə arasında əmtəə mübadiləsinin həcmi 312,8 min dollar idisə, 2010-cu ildə bu rəqəm 1171,89 min dollar təşkil etmişdir.[5]

---

[1] Aslanov A. Azərbaycan Şərqi Avropaya «qapı» açır. «Azərbaycan» qəz., 1995, 5 iyul, № 124 (1141).

[2] Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun Rumıniya senatının sədri Nikolae Vakarou ilə görüşünə dair tezislər. // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f.2941, v.204.

[3] Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə birgə fəaliyyət planı. // AR XİN-nin cari arxivi: v.1-6.

[4] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə, s. 46-47.

[5] Azərbaycan Respublikası və Rumıniya arasında 1995-2010-cu illərdə xarici ticarət. // Azərbaycan Dövlət Statistika Komitəsi.

Tədqiqatdan məlum olur ki, Rumıniya ilə Azərbaycan arasında neft-qaz sahəsində əməkdaşlıq geniş olmuşdur. 1998-ci il iyunun 29-da Rumıniya Prezidenti E.Konstantineskunun Azərbaycana səfəri zamanı neftin nəqli məsələləri diqqət mərkəzində oldu. Azərbaycan tərəfi neftin Bakı-Konstansa marşrutu ilə nəqli layihəsini dəstəklədi.

2010-cu il fevralın 2-də Rumıniya İqtisadiyyat və Biznes Mühiti Nazirliyi və Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi arasında enerji sahəsində əməkdaşlığa dair imzalanan anlaşma memorandumuna əsasən tərəflər qazın nəqli, qaz ticarəti və Rumıniyadakı yeraltı qaz anbarlarının istifadəsi, Rumıniya emal zavodlarında neftin emalı, Pan-Avropa Neft Kəməri layihəsi (PEOP) vasitəsilə neftin nəqli, Rumıniya qaz boru xətti nəqli sisteminin imkanlarının təhlili sahəsində əməkdaşlıq edəcəklər.[1]

Araşdırma göstərir ki, iki ölkə arasında enerji sahəsində əməkdaşlıq qarşılıqlı maraqlara xidmət etmişdir. Rumıniyanın illik neft hasilatı onun tələbatını ödəmədiyi üçün Azərbaycanın həm Rumıniya, həm də Avropanın enerji təhlükəsizliyində rolu böyükdür.

Paraqrafda qeyd edilir ki, Rumıniya ilə Azərbaycan arasında nəqliyyat sahəsində geniş əməkdaşlıq mövcud olmuşdur. İki ölkə arasında 1996-cı il martın 27-də «Beynəlxalq avtomobil nəqliyyatı», «Ticarət gəmiçiliyi», «Hava əlaqələri haqqında», 1998-ci il iyunun 30-da imzalanmış «Beynəlxalq qarışıq daşımalar» haqqında sazişlər təhlil edilmişdir. Rumıniya ilə Azərbaycan arasında kənd təsərrufatı sahəsində də əməkdaşlığın prioritet sahələri müəyyənləşdirilmiş, 2011-ci il aprelin 18-də bu sahədə əməkdaşlıq haqqında imzalanmış sənəd təhlil edilmişdir.

Rumıniya ilə Azərbaycan arasında investisiya sahəsində geniş əlaqələr mövcud olmuşdur. 2005-ci il aprelin 7-də rumın və Azərbaycan iş adamları tərəfindən Rumıniya-Azərbaycan Sənaye Ticarət Palatası (RA STP) təsis edildi.[2] 2009-cu ildə Rumıniyada fəaliyyət göstərən və ümumi kapitalı 1033,097 min dollar olan 36 Rumıniya-Azərbaycan birgə müəssisəsi qeydə alınmışdı. 2010-cu ildə isə bu müəssisələrin sayı 39, ümumi kapitalı isə 2

---

[1] Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi və Rumıniya İqtisadiyyat, Ticarət və Biznes Mühiti Nazirliyi arasında energetika sahəsində anlaşma memorandumu. 2 fevral, 2010 / http:// www.e-qanun.az/ print.php? internal=view&target=1&docid=19845&doctype=0#.

[2] Rumıniyada fəaliyyət göstərən Azərbaycan ictimai təşkilatları barədə qısa arayış. // Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f.2941, v.264-265.

222,5 min dollar olmuşdu.[1]

**«Elmi-texniki və mədəni əlaqələr»** adlanan ikinci yarımfəsildə elmlər akademiyaları, təhsil, ədəbiyyat, musiqi, rəssamlıq, teatr, kino sahəsində əlaqələr sistemli şəkildə araşdırılmışdır. Prezident Heydər Əliyevin Rumıniyaya ilk rəsmi səfəri zamanı iki ölkə arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında saziş imzalandı. Sazişdə tərəflərin dili və ədəbiyyatının milli təhsil müəssisələrində öyrənilməsi, tələbə və şagird mübadilələri, qarşılıqlı olaraq attestat, diplom, elmi və akademik dərəcələrin tanınması və s. nəzərdə tutulurdu.[2]

Araşdırma göstərir ki, 2000-ci ildən başlayaraq iki ölkənin universitetləri arasında əlaqələr genişlənməyə başlamışdır. 2002-ci ilin aprel ayında Konstansanın Ovidius Universitetinin rektoru, professor Adrian Bavarunun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı Bakı Dövlət Universiteti ilə elmi tədqiqatlar sahəsində qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalandı.[3] 2004-cü il oktyabrın 11-də Prezident İlham Əliyev Rumıniyada səfərdə olarkən Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalandı.[4]

Tədqiqat işində Rumıniya ilə Azərbaycanın elmlər akademiyaları arasında əməkdaşlıq məsələləri də araşdırılmışdır. 2002-ci il iyunun 17-də Buxarestdə Rumıniya və Azərbaycan Elmlər Akademiyaları arasında əməkdaşlığa dair protokol imzalandı.[5]

Tədqiqatdan məlum olur ki, Rumıniya ilə Azərbaycan arasında sıx ədəbi əlaqələr mövcud olmuşdur. Ədəbi, mədəni əlaqələrin inkişafında Azərbaycan-Rumıniya Mədəni Əlaqələr Birliyi, Rumıniya-Azərbaycan

---

[1] Direct capital investment made in Romania by Azerbaijani companies / http://www.baku.mae.ro/index.php?lang=en&id=107063.

[2] Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında elm, təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında saziş. 1995, 2 iyul. // AR XİN-in cari arxivi: v. 3-4.

[3] Agreement on mutual cooperation on scientific research area between Ovidius University and Baku State University.// BDU-nun cari arxivi. 2002. Beynəlxalq əlaqələr şöbəsi, v.1.

[4] Rumıniya Təhsil və Tədqiqatlar Nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında əməkdaşlıq haqqında saziş. // Azərbaycan Respublikası Təhsil Nazirliyinin cari arxivi. 2004. Beynəlxalq şöbə, v. 1.

[5] Rumıniya Akademiyasının və Azərbaycan Elmlər Akademiyasının arasında əməkdaşlığa dair protokol. // AMEA-nın cari arxivi. Xarici əlaqələr şöbəsi, v.1.

Gənclər və Mədəniyyət Assosiasiyası, Azərbaycan-Rumıniya və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətləri böyük rol oynamışlar. Bu cəmiyyətlərin köməkliyi ilə Azərbaycan və rumın müəlliflərinin əsərləri tərcümə edilərək geniş ictimaiyyətə çatdırılmışdır. 2002-ci ildə B.Vahabzadənin Rumıniyada çapdan çıxmış «Zaman və məkan» adlı şerlər kitabının təqdimatı oldu.[1] 2003-cü ildə Azərbaycanın Rumıniyadakı səfirliyinin təşəbbüsü ilə müqəddəs kitab, Qurani-Kərim rumın dilinə tərcumə edildi.[2]

Azərbaycan haqqında ilk kitab Avropada tanınmış jurnalist Minodor Mitrikanın 2003-cü ildə rumın və ingilis dillərində nəşr olunan «Azərbaycanın dirçəlişi» əsəri oldu.[3]

Tədqiqat göstərir ki, 2007-ci ildə Heydər Əliyev Fondunun Rumıniya nümayəndəliyinin təsis edilməsi istər mədəni, istərsə də humanitar sahədə əlaqələrin inkişafında mühüm hadisələrdən biri olmuşdur. 2009-cu ildə Heydər Əliyev Fondunun və Azərbaycanın Rumıniyadakı səfirliyinin təşəbbüsü ilə Kopi Kuçukun «Heydər Əliyev. Zəmanəmizin Atatürkü» monoqrafiyası nəşr edildi.[4]

Araşdırmadan məlum olur ki, iki ölkə arasında ədəbi əlaqələr geniş olsa da, incəsənətin müxtəlif sahələrində əməkdaşlıq zəif olmuşdur.

Dissertasiya işinin 2 yarımfəsildən ibarət olan üçüncü fəsli **«Çoxtərəfli münasibətlərdə Rumıniya-Azərbaycan əməkdaşlığı»** adlanır. **«Beynəlxalq və regional təşkilatlarda birgə iştirak»** adlanan birinci yarımfəsildə BMT, ATƏT, Avropa Şurası Parlament Assambleyası (AŞPA), NATO və onun Parlament Assambleyası, Avropa İttifaqı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi (QİƏPM), Qara dəniz Universitetlər Şəbəkəsi (QDUŞ) çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığı məsələləri araşdırılmışdır. Qeyd edilmişdir ki, QİƏT çərçivəsində Rumıniya ilə Azərbaycan ticarət, sənaye, bank və maliyyə, nəqliyyat və rabitə, kənd təsərrüfatı, turizm, energetika, ətraf mühitin mühafizəsi, elm, təhsil və digər sahələrdə əməkdaşlıq etmişdir. 1995-ci il iyunun 30-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin dövlət və

---

[1] Kərimli F. B.Vahabzadə yaradıcılığı Rumıniyada. «Yeni Azərbaycan» qəz., 2002, 25 yanvar, № 015 (1243).

[2] Hasanov E. The bridge between Europe and Asia // Revista Romana de studii Eurasiatice Anul I, NR. 1, 2005. Ovidius University press, p. 21.

[3] Mitrica M. The revival of Azerbaijan. Paideia, 2003, p. 8-9, 38, 45.

[4] Həsənov E. Slavyan dənizindəki latın adasında. Ömrün 10 ili, s.180.

hökumət başçılarının Buxarestdə keçirilən zirvə toplantısında Prezident Heydər Əliyev bölgənin əsas məsələlərindən birinin Qara dənizin və ətraf mühitin ekologiyası problemi olduğunu vurğulamışdır.[1]

Yarımfəsildə daha sonra qeyd olunur ki, 2003-cü ilin mayında altı aylıq müddətdə QDİƏT-in sədrliyi səlahiyyətlərini öz üzərinə götürmüş Azərbaycan Respublikası enerji, nəqliyyat və turizm sahələri üzrə əməkdaşlığın inkişafına dair Bakıda üzv dövlətlərin müvafiq nazirlərinin iclaslarını təşkil etdi.[2] 2011-ci il yanvarın 1-dən iyunun 30-dək müddətdə Rumıniya bu təşkilata sədrlik etmişdir. Araşdırma göstərir ki, Rumıniyanın əsas prioriteti təşkilat çərçivəsində iqtisadi əməkdaşlığın aktivləşdirilməsi, daxili işlər, mütəşəkkil cinayətkarlıq və korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın möhkəmləndirilməsi olmuşdur.[3]

Təhlildən aydın olur ki, QİƏPM çərçivəsində də Rumıniya-Azərbaycan əlaqələri geniş olmuş, əsasən parlamentlərarası əməkdaşlığı əhatə etmişdir. Azərbaycan ilə Rumıniya birlikdə bu təşkilatın siyasi və hüquqi, iqtisadi-ticarət, mədəniyyət komitələrinin iclaslarında fəal iştirak edərək, əməkdaşlıq imkanlarını müzakirə etmişdir.

Araşdırma göstərir ki, QDUŞ çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığı universitetlərarası inteqrasiyanı nəzərdə tutmuşdur. 2002-ci il sentyabrın 11-dən 14-dək Bakıda Qara dəniz regionu rektorlarının IV konfransı ilə birlikdə QDUŞ-un ikinci konqresində A.Məhərrəmov QDUŞ-un yeni prezidenti seçildi.[4] QDUŞ çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığının əsas prioriteti Avropa təhsil sisteminə inteqrasiya etmək və Bolonya prosesinin Qara dəniz regionunda yayılması olmuşdur.

Aparılan tədqiqat Rumıniyanın Azərbaycan ilə NATO arasında əlaqələndirici dövlət statusuna malik olduğunu göstərir. Rumıniya səfirliyi əlaqələndirmə missiyası çərçivəsində NATO-nun fəaliyyətinin Azərbaycanda təqdim olunması məqsədilə ictimai diplomatiya istiqamətində bir sıra tədbirlər həyata keçirmiş, eyni zamanda NATO ilə maraqlanan Azərbaycan institutlarının və qeyri-hökumət təşkilatlarının

---

[1] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qara dəniz Hövzəsi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə Buxarest görüşündə çıxışı. «Azərbaycan» qəz., 1995, 6 iyul, № 125 (1142).

[2] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 381-382.

[3] Yanvarın 1-dən QDİƏT-ə Rumıniya sədrlik edəcək / http: // www.deyerler.org.

[4] Əliyev İ. Qara Dəniz Hövzəsi Ölkələrinin Universitetləri Şəbəkəsinin ikinci konqresi öz işinə başladı. «Azərbaycan» qəz., 2002, 13 sentyabr, № 211 (3223).

etibarlı tərəfdaşı olmuşdur.

Yarımfəsildə Rumıniya ilə Azərbaycanın ATƏT çərçivəsində əməkdaşlığı araşdırılaraq göstərilir ki, bu, əsasən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi istiqamətində olmuşdur.[1]

Rumıniya ilə Azərbaycan Avropa Şurası Parlament Assambleyası çərçivəsində də Dağlıq Qarabağ münaqişəsi ətrafında fikir mübadiləsi aparmışdır. Rumıniya bu məsələdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir.[2]

Tədqiqat göstərir ki, Rumıniya Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində Şərq qonşuları ilə Cənub qonşuları arasında ümumi maraqlar və dəyərlər əsasında əməkdaşlıqda maraqlı olmuşdur. AQS çərçivəsində əsas diqqət Qara dəniz regionuna ayrılaraq 2007-ci ildə «Qara dəniz Sinejisi» təşəbbüsü irəli sürülmüşdür. Bu proqram böyük Qara dəniz regionu dövlətləri ilə Aİ arasında demokratiya, insan hüquqları, səmərəli idarəetmə, dondurulmuş münaqişələr, enerji, nəqliyyat, ətraf mühitin mühafizəsi, dəniz siyasəti, balıqçılıq, miqrasiya, təhsil, elmi tədqiqatlar sahəsində əməkdaşlığa dair layihələrin həyata keçirilməsinin prinsiplərini əhatə edirdi.[3]

Araşdırılan illərdə Rumıniya ilə Azərbaycan arasında BMT, GUAM çərçivəsində də əməkdaşlıq mövcud olmuşdur. Dissertasiya işində bu məsələyə də diqqət yetirilmişdir.[4]

Fəslin **«Beynəlxalq layihələrdə əməkdaşlıq»** adlanan ikinci yarımfəslində Azərbaycan ilə Rumıniya arasında iqtisadiyyat sahəsində həyata keçirilən layihələr – TRASEKA, Pan-Avropa, Nabukko və AGRİ çərçivəsində əməkdaşlıqdan bəhs olunur. Göstərilir ki, Azərbaycan Avropanın, o cümlədən Rumıniyanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətli bir dövlətdir. Azərbaycanın neft ehtiyatlarının nəqlinə gəlincə bu sahədə əsas layihə Bakı-Konstansa-Triest, Pan-Avropa layihəsidir. Bu kəmər Rumıniyanın Konstansa limanı ilə

---

[1] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 200-203.
[2] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 45 cilddə, XII c.,s. 309-310.
[3] European Neighbourhood Policy. (ENP) / http: //www.mae.ro/en/node/2181.
[4] ГУАМ просит Генеральную Ассамблею рассмотреть вопрос о затянувшихся конфликтах в Молдове, Грузии и Азербайджане / http: // www.un.org/russian/ news/fullstorynews.asp?newsID=6112; Резолюция Генеральной Ассамблеи ООН № 62/243 от 14 марта 2008 года / http:// www.un.org/ru/ga/62/docs/ 62_ 545-557.pdf.

Serbiya, Xorvatiya və Sloveniyadan keçməklə İtaliyanın Triest limanını birləşdirir.[1]

Azərbaycan Respublikasının Rumıniya ilə iştirak etdiyi layihələrdən biri Nabukkodur. Nabukko layihəsi üzrə yaradılmış beynəlxalq konsorsiuma Avstriyanın OMV, Macarıstanın MOL, Bolqarıstanın Bulqarqaz, Rumıniyanın Transqaz, Türkiyənin BOTAŞ və Almaniyanın RWE şirkətləri daxildir.

Araşdırma göstərir ki, Rumıniya Azərbaycan qazının Avropaya nəqlində maraqlı dövlətlərdən biri olmuşdur. Bu sahədə əsas layihələrdən biri AGRİ-dir. AGRİ layihəsi gələcəkdə Azərbaycanın təbii qazının boru kəməri vasitəsilə Gürcüstanın Qara dəniz sahillərinə nəql olunması, burada xüsusi terminalda mayeləşdirilərək, tankerlərlə Rumıniyanın Konstansa limanındakı terminala çatdırılması, daha sonra isə yenidən təbii qaz şəklində bu ölkənin ərazisində mövcud olan qaz infrastrukturu şəbəkəsi ilə Rumıniyanın və digər Avropa ölkələrinin tələbatlarının ödənilməsini nəzərdə tutur.

**Nəticədə** tədqiqat əsasında əldə edilmiş mühüm nəticələr qeyd edilmiş, işə ümumi yekun vurulmuşdur.

Dissertasiya işinin **praktik tövsiyələr** hissəsində iki ölkə arasında münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsi üçün elmi əsaslandırılmış konkret təkliflər irəli sürülmüşdür.

## Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:

1. Azərbaycan-Rumıniya diplomatik-siyasi münasibətlərinin qurulması və inkişafı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, 2006, № 4, s. 234-238.
2. Rumıniya-Azərbaycan münasibətləri tarixindən // ADU, Elmi xəbərlər. Bakı, 2007, № 2, s.272-275.
3. Rumıniya-Azərbaycan ticarət-iqtisadi əlaqələri // ADU, Beynəlxalq münasibətlərin aktual problemləri. Bakı, 2007, № 1, s.30-37.
4. Rumıniya-Azərbaycan Respublikası münasibətləri // Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya (iqtisadi və beynəlxalq münasibətlər)

[1] Avropanın əsas neft və qaz kəmərləri / http: // www.azadliqradiosu.az/content/ article/1735016.htm.

II Beynəlxalq konqres, 02-05 may 2007. III kitab. Bakı, Qafqaz Universiteti, 2007, s. 1209-1212.

5. Азербайджано-румынские отношения в рамках Парламентской Ассамблеи Черноморского Экономического Сотрудничества (1993-1999 гг.) // Актуальные проблемы современной науки. Москва, 2008, № 4 (43), с.46-48.

6. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Rumıniya-Azərbaycan əməkdaşlığı // BDU, Tarix və onun problemləri. Bakı, 2008, № 3, s. 142-148.

7. Роль Парламентской Ассамблеи Черноморского Экономического Сотрудничества во взаимоотношениях Румынии и Азербайджана (2000-2007 гг.) // Актуальные проблемы современной науки. Москва, 2008, № 4 (43), с. 49-51.

8. Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi çərçivəsində Rumıniya-Azərbaycan əlaqələri // Dirçəliş – XXI əsr jurnalı. Bakı, 2009, № 130-131, s. 297-306.

9. Nabukko layihəsi: ideyadan reallığa doğru // ADU, Beynəlxalq münasibətlərin aktual problemləri. Bakı, 2009, № 1, s. 70-81.

10. Rumıniya-Azərbaycan münasibətləri (2003-2008) // Doktorantların və gənc tədqiqatçıların XIV respublika elmi konfransının materialları. Bakı, 2010, s. 120-121.

11. Rumıniya ilə Azərbaycanın elmi-texniki, mədəni və humanitar əlaqələri // Dirçəliş-XXI əsr jurnalı. Bakı, 2010, № 147-148, s.277-284.

12. Rumıniya-Azərbaycan əməkdaşlığı çoxtərəfli münasibətlər sistemində (1992-1999) // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2010, № 4, s. 143-147.

13. Rumıniya Azərbaycanın siyasi tərəfdaşı kimi // Doktorantların və gənc tədqiqatçıların XV respublika elmi konfransının materialları. I hissə. Bakı, 2011, s. 223-225.

14. Azərbaycanın Qara dəniz Universitetlər Şəbəkəsində iştirakı // «Universitetlərarası dialoq: auditoriyanın idarə olunması, qiymətləndirmə, şəffaflıq» respublika elmi-praktiki konfransının materialları (24-25 noyabr 2011-ci il). Bakı, 2011, s.26-27.

15. Rumıniya ilə Azərbaycan arasında münasibətləri zəruri edən amillər // Doktorantların və gənc tədqiqatçıların XVI respublika elmi konfransının materialları. I hissə. Bakı, 2012, s.183-185.

16. Сотрудничество на многосторонней основе между Румынией и Азербайджаном (2000-2010 гг.) // Гілея. Науковий вісник. Національний педагогічний університет імені М.П. Драгоманова.

Українська Академія Наук. Киів, 2012, Випуск 62 (№ 7), с. 216-219.

17. Rumıniya və Azərbaycan: beynəlxalq enerji layihələrində əməkdaşlıq // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransının materialları, 26-27 aprel, 2013. Bakı, Qafqaz Universiteti, s. 173-174.

18. Rumıniya-Azərbaycan diplomatik-siyasi münasibətləri strateji tərəfdaşlığa doğru // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2013, № 4, s. 98-104.

19. Rumıniya və Azərbaycan: beynəlxalq enerji layihələrində əməkdaşlıq // Journal of Qafqaz University - History, law and political sciences. Volume 1. Bakı, 2013, № 1, s. 77-82.

**С.А. Иманова**

# РУМЫНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ (1991-2011 гг.)

## РЕЗЮМЕ

В диссертационной работе исследуются отношения между Румынией и Азербайджаном в период с 1991 - по 2011 гг.

Работа состоит из введения, трех глав, шести параграфов, заключения, практических рекомендаций и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, анализируется источники и литературь, определяются цели и задачи, научно-методологическая основа, указывается научная новизна, хронологические рамки, объект и предмет, апробация, практическое значение исследования.

В первой главе рассмотрены факторы, повлиявшие на отношения между Румынией и Азербайджаном, процесс установления и развития дипломатических и политических отношений. Делается экскурс в историю отношений между Румынией и Азербайджаном, анализируется связей между парламентами.

Во второй главе проанализирована договорная и правовая база торгово-экономических отношений между Румынией и Азербайджаном. Изучены вопросы сотрудничества в области нефти-газа, энергетики, машиностроения, транспорта, сельского хозяйства, туризма и инвестиций. Систематическом порядке изучены отношения между двумя странами в области образования, академий наук, литературы, кино, театра, музыки и т.д.

В третьей главе диссертационной работы изучены сотрудничества Румынии и Азербайджана в рамках Организации Черноморского Экономического Сотрудничества (ОЧЭС) и ее парламентской ассамблеи (ПАЧЭС), НАТО, Европейского Союза, ОБСЕ и других организаций. Также исследованы вопросы участия двух стран в международных экономических проектах, о важной роли Азербайджана в энергетической безопасности Европы, сотрудничества в рамках проектов Пан-Европа, Набукко, АГРИ и ТРАСЕКА.

В заключении диссертационной работы подведены итоги исследований.

В части практических рекомендаций диссертации выдвинуто ряд предложений относительно для дальнейшего развития отношений между двумя странами в различных областях.

Диссертационная работа заканчивается списком использованных источников и литературы.

**S.A.Imanova**

## ROMANIA-AZERBAIJAN RELATIONS (1991-2011 years)

## SUMMARY

The dissertation work researches relations between Romania and Azerbaijan during 1991- 2011 years.

The dissertation consists of the introduction, three chapters, six paragraphs, the conclusion, practical recommendations and the reference list.

In the introduction the relevance of the topic and the bibliography is analyzed, the purpose and objectives of research are defined, practical importance, scientific and methodological basis, chronological frame, the scientific innovation, as well as object and approbation are elucidated.

The first chapter scrutinizes the factors that affected Romanian-Azerbaijani relations, and the process of establishment and development of diplomatic and political relations. The author retrospectively analyzes bilateral relations and development of cooperation between parliaments of the two countries.

The second chapter researches the contractual and legal basis of bilateral relations in the field of trade and economics, as well as cooperation in the various fields including, but not limited to oil and gas, energy, mechanical engineering, transport, agriculture, tourism, investments, education, literature, cinema, theatre, and music.

In the third chapter of dissertational work Romanian-Azerbaijani cooperation within the framework of the Organization of the Black Sea Economic Cooperation (BSECO) and its Parliamentary Assembly (PABSEC), NATO, European Union, OSCE and other organizations are examined. The issues of participation of both countries in the international economic projects, cooperation within the framework of the Pan-Europe, Nabucco, AGRI and TRACECA projects and the important role of Azerbaijan in energy security of Europe are also analyzed in this chapter.

In the conclusion part of dissertational work researches are summarized.

In the part of practical recommendations the author puts forward a number of suggestions concerning further development of relations between the two countries in various areas.

The dissertation is finalized with a reference list and bibliography.

Kağız formatı 60x84, 1/16
Tiraj 100
İnşaatçılar prospekti 136

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**САМИРА АБУЛФАТ гызы ИМАНОВА**

# РУМЫНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ (1991-2011 гг.)

Специальность: 5502.01 – Всеобщая история

# А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2014**